# Xocalının Ballıca kəndi sakinlərinə qovuşdu














**İşğaldan azad edilmiş ərazilərə Böyük qayıdış davam edir. Dünən Xocalı rayonunun yenidən qurulan Ballıca kəndi doğma sakinlərini qəbul edib.**

İşğaldan azad edilən bütün ərazilərimizdə olduğu kimi, Xocalıda da qısa zaman müddətində aparılan hərtərəfli quruculuq və bərpa işləri sayəsində artıq bu şəhərə də, sözün əsl mənasında, yenidən can verilib.

Dekabrın 13-də respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət köç karvanı Ağdamdan Xocalının Ballıca kəndinə yola salınıb. İlk mərhələdə kəndə 27 ailə - 152 nəfər köçürülüb.

Keçmiş məcburi köçkünlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət diləyiblər.

Qeyd edək ki, hazırda Qarabağda və Şərqi Zəngəzurda, ora köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, ümumilikdə, 30 minə yaxın insan yaşayır.

Beləliklə, Xocalı rayonunun Ballıca kəndi də daxil olmaqla indiyədək 2442 ailə - 9455 nəfər ata-baba yurdlarına geri dönüb. 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndində, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndində, 570 ailə (2090 nəfər) Laçın şəhərində, 823 ailə (3136 nəfər) Füzuli şəhərində, 217 ailə (823 nəfər) Laçın rayonunun Zabux kəndində, 59 ailə (215 nəfər) Laçın rayonunun Sus kəndində, 268 ailə (987 nəfər) Şuşa şəhərində, 46 ailə (179 nəfər) Xocalı şəhərində, 27 ailə (152 nəfər) Xocalının Ballıca kəndində, 237 ailə (912 nəfər) Cəbrayıl şəhərində məskunlaşıb.

*R.BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

